# “Heydər Əliyev və Azərbaycan tarixi”

## Tələbələr arasında ümumrespublika bilik yarışı keçirilib

**Oktyabrın 18-də Heydər Əliyev Mərkəzində növbəti ümumrespublika bilik yarışı keçirilib.**







“Heydər Əliyev və Azərbaycan tarixi” IX ümumrespublika bilik yarışı Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə baş tutub.

Artıq ənənəyə çevrilən bu layihə Azərbaycan tarixi və bu il 100 illiyi qeyd edilən Ümummilli Lider Heydər Əliyevin həyatı, çoxşaxəli fəaliyyəti, irsinin tədqiqi, öyrənilməsi və təbliği məqsədini daşıyır.

18 Oktyabr — Müstəqilliyin Bərpası Günündə keçirilən yarışda əvvəlcə Heydər Əliyevin gənclərlə görüşlərini, Ulu Öndərin onlara mühüm tövsiyələrini və Heydər Əliyev yolunun Prezident İlham Əliyev tərəfindən davam etdirilməsini əks etdirən videoçarx nümayiş olunub.

Builki bilik yarışında ölkənin 50 ali təhsil müəssisəsinin komandaları iştirak ediblər.

İştirakçılar “Heydər Əliyevin uşaqlıq və gənclik illəri”, “Heydər Əliyev və Azərbaycanın müstəqillik illəri”, “Heydər Əliyev və Qarabağ həqiqətləri”, “Azərbaycan ordusunun Vətən müharibəsində zəfər yürüşü” və digər mövzularda biliklərini sınayıblar.

Qeyd edək ki, komandalar yarışa hazırlıq mərhələsində Heydər Əliyev Mərkəzində təşkil olunan təlimlərdə iştirak edib, Heydər Əliyev Muzeyində saxlanılan arxiv materialları ilə tanış olublar.

Hər ali təhsil müəssisəsini 6 nəfərdən ibarət komanda təmsil edib.

Münsiflər heyətinin qiymətləndirməsinə əsasən I, II və III yerləri tutan komandalar mükafatlandırılıblar. Qaliblərə mükafatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, elm və təhsil naziri Emin Əmrullayev təqdim ediblər.

Bilik yarışında I yeri Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, II yeri Daxili İşlər Nazirliyinin Akademiyası, III yeri isə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Akademiyası qazanıb.